# AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

**№ 82** **Bakı şəhəri, 4 mart 2020-ci il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 6 avqust tarixli 147 nömrəli Qərarı ilə təsdiq edilmiş "Formal təhsilin təşkili Qaydaları"nda dəyişiklik edilməsi haqqında***

"Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanına əsasən, Azərbaycan Respublikası Təhsil Nazirliyinin təklifini nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 6 avqust tarixli 147 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 8, maddə 756; 2012, № 6, maddə 632; 2016, № 12, maddə 2244; 2018, № 11, maddə 2431, № 12 (II kitab), maddə 2739) ilə təsdiq edilmiş "Formal təhsilin təşkili Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 4-cü hissəyə, 5.4-cü bəndin ikinci abzasına (hər iki halda) və üçüncü abzasına (birinci halda) "əyani" sözündən sonra "(tədrisə tam cəlb olunma – fulltime və tədrisə qismən cəlb olunma – parttime)" sözləri əlavə edilsin.

2. 5.6-cı bənd aşağıdakı redaksiyada verilsin:

"5.6. təkrar ali təhsil üzrə:

əyani (tədrisə tam cəlb olunma – fulltime və tədrisə qismən cəlb olunma – parttime), qiyabi.".

3. Aşağıdakı məzmunda 5.7-ci bənd əlavə edilsin:

"5.7. təkrar orta ixtisas təhsili üzrə:

əyani, qiyabi.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş Naziri***

Xalq qəzeti 2020.- 8 mart.- S.5.